**E.O.CABBAROVA**
*e-mail: dcel_cabbarova1980@mail.ru*

DOI:10.48652/v0161-8079-9810-d

**Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)**
(Şəki şəh., M.Ə.Rəsulzadə küç., 305)

# AZƏRBAYCAN TARİXİ DƏRSİNDƏ VƏTƏNPƏRVƏRLİYİN GƏNC NƏSLƏ ÖYRƏDİLMƏSİ

***Açar sözlər:*** *Vətən, vətənpərvərlik, Azərbaycan, azərbaycançılıq, gənclər, tarix, Azərbaycan tarixi, Azərbaycan tarixi dərsi, təhsil, tədris.*

***Ключевые слова****: Родина, патриотизм, Азербайджан, азербайджанство, молодежь, история, учение история Азербайджана, урок истории Азербайджана, образование.*

***Key words****: Homeland, patriotism, Azerbaijan, Azerbaijanism, youth, history, history of Azerbaijan, the lesson of history of Azerbaijan, education, teaching*

Mövzunun aktuallığı: Vətən bizim varlığımızdır, fəxrimizdir, qürurumuzdur. Vətən hər birimizin müqəddəs səcdəgahı, pənahı, ümid yeridir. Vətən torpağının müqəddəsliyi, onun yağılardan qorunmasının vacibliyi dastanlarımızın əzəli ulusu "Dədə Qorqud"da böyük məhəbbətlə tərənnüm edilir. Vətən ana ilə bərabər tutulur. Oğuz igidləri "Vətən haqqı ana haqqıdır" - kəlamının işığında Vətənin keşiyində ayıq-sayıq dayanıb, onu göz bəbəyi kimi qoruyurlar.

Vətənimizi dərin məhəbbətlə sevməli və onu hər an qorumağa hazır olmalıyiq. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq isə vətənpərvərlikdir. Vətənpərvərlik vətənə məhəbbət, əcdadaların ənənələrinə hörmət deməkdir. Vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Olduqca geniş mənaya malik olan vətənpərvərlik anlayışı özündə vətənə, millətə sevgi hissini əks etdirir. Millətin vətənpərvərliyi onun tamlığının, bütövlüyünün təməlidir. Bir xalqın, millətin vətənpərvərlik şüuru onun digər xalqlar və millətlər tərəfindən qəbul edilməsi, tanınması, hörmətlə qarşılanması, ən əsası isə o xalqın yaratdığı dövlətin bütövlüyü, varlığı, suverenliyi ilə ölçülür.

Ümummilli liderimiz, Dahi öndərimiz Heydər Əliyev vətənpərvərliyi, vətəndaşlıq duyğusunu, xalqın, vətənin taleyinin tərkib hissəsi hesab edərək bu haqda fikrini bü cür ifadə etmişdir:

“Vətənpərvərlik nədir? Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik! Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz vətənini, torpağını, xalqını sevməsən ,öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, başqa şeyləri qiymətləndirə bilməzsən. İndi bizim əsas vəzifəmiz gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaqdır. Vətəni, torpağı müdafiə etmək, hər bir gənc üçün müqəddəs vəzifə olmalıdır”.

“Azərbaycanın gələcəyi gənclərə məxsusdur”- deyən dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə gənclərimizin hərtərəfli inkişafına imkanlar açan müvafiq tədbirlər həyata keçirmiş və tez bir zamanda müstəqil Azərbaycanımızın gələcəyini qoruyub saxlaya biləcək gənc nəsillərin yetişdiyinə əminliyini belə ifadə etmişdir: “Müstəqil Azərbaycan ifadəsi indi hamı üçün əzizdir, bunu hamı təkrar edir. Ancaq hər kəs də başa düşməlidir ki, müstəqil Azərbaycanın müstəqil yaşaması üçün hər bir vətəndaşın vətəndaşlıq borcu var. Bunu təmin etmək üçün hər bir vətəndaş öz payını verməli, öz xidmətini göstərməlidir”. Həmçinin gənclərin vətənpərvərlik tərbiyəsinə azərbaycançılığı, qəhrəmanlığı əxz etməklə bütün çətinlikləri aradan qaldırmaq vasitəsi kimi baxırdı: "Siz də Azərbaycan xalqına xidmət edərək... Vətənpərvərlik hissi ilə yaşayaraq özünüzü qəhrəman, cəsur, qüdrətli

bir insan kimi formalaşdırmalısınız və qarşıdan gələ biləcək bütün çətinliklərə hazır olmalısınız". Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük diqqətlə yanaşmış və ona həyati əhəmiyyətli məsələ kimi baxmışdır. Cünki, vətənpərvərlik hissinin aşılanması dövlətin, dilin, adət-ənənələrin, ümumilikdə bütöv bir xalqın gələcəyini təmin edən əsas amillərin ən mühümüdür. Vətənpərvərlik gənclərdə vicdan, ləyaqət, ədalət hisslərini tərbiyə edir, şəxsi mənafe, eqoizimdən uzaqlaşdıraraq millət, xalq sevgisini oyadır. Bu isə öz növbəsində dövlətin demokratik prinsiplərlə idarə olunmasına, xalqın mənafeyinə xidmət edilməsinə zəmin yaradır. Bu mövzunun öyrənilmə və işlənilmə zərurətidə məhz bundan irəli gəlir və bu səpkidə işlənilən bütün mövzular hər zaman xüsusi əhəmiyyət və aktuallıq kəsb edir.

**Mövzunun əsas məzmunu**: Hazırda qloballaşan dünyada ölkəmizin qarşısında duran prioritet hədəf - XXI əsrin çağırışlarına cavab verən bilik və bacarıqlarına malik olan, soykökünə bağlı, ənənəvi milli-mənəvi dəyərləri qoruyub saxlayan və bölüşən, Vətənin dinc quruculuğu və müdafiəsinə hazır olan, müasir və kreativ düşüncəli, innovasiyalardan baş açan yeni nəslin formalaşdırılmasına nail olmaqdan ibarətdir. Əslində bu hədəflər müasir Azərbaycan təhsilinin və milli tərbiyənin qarşısında duran əsas priotetlər və strateji istiqamətlərdir. Bu strateji hədəfə çatmağın əsas alət və vasitələrindən biri uşaq və gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə işinin səmərəli təşkilidir.Vətənpərvərlik hissi uşağa kiçik yaşlarından, ilk növbədə ailədə aşılanmalıdır. Beləki, ilkin mənəvi təsəvvür və anlayışlar, əxlaqi-etik kateqoriyalar – milli şüur, milli ləyaqət, milli psixologiya, mənlik, vətəndaşlıq dəyanəti, dözümlülük, ailədə qayğı, məhəbbət, şərəf, qeyrət, namus və s. kimi kateqoriyalar məhz məktəbəqədər yaş dövründə daha sürətlə formalaşmağa başlayır. Uşaqların mənəvi əqidəsi, dünyagörüşü, etiqadları, ailə həyatına baxışları, əxlaq tərbiyəsi, ailə həyatı ilə bağlı olan məsələlər ilk uşaq çağında təşəkkül tapır. Müasir dövrdə bu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi kiçik yaşlı uşaqları müstəqil həyata hazırlamaq, uşaqların tərbiyəsindən, xüsusilə də vətəndaşlıq, insanpərvərlik və Vətənə məhəbbət ruhunda tərbiyəsindən həlledici dərəcədə asılıdır.

Məktəbəqədər yaşlı uşaqların vətənə məhəbbət ruhunda tərbiyəsi olduqca mühüm və zəruridir. Bu, vətənə və təbiətə məhəbbət tərbiyəsidir, doğma vətəninə bağlılıq tərbiyəsidir. Ana dilində, mənsub olduğu xalqa vurğunluq tərbiyəsidir. Dilini, xalqını, soydaşlarını, həmvətənlərini sevmək tərbiyəsidir. Respublika konstitusiyasına, onun bayrağına, gerbinə, himninə hüsn – rəğbət tərbiyəsidir. Eyni zamanda mənsub olduğu xalqla, onun nailiyyətləri ilə, tarixi ilə, mədəniyyəti və milli-mənəvi dəyərləri ilə fəxr etmək tərbiyəsidir. Vətən torpaqlarının azadlığı, qorunması naminə mübarizlik tərbiyəsidir. Vətənin çiçəklənməsi naminə fədakarlıq göstərmək – yaxşı oxumaq, elmlərin əsaslarına dərindən yiyələnmək, üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirmək tərbiyəsidir. Buna görə də uşaqlarda hələ erkən yaşlarından bütün müsbət keyfiyyətlərlə yanaşı vətənpərvərlik hissinində formalaşdırılması həm ailələrin həmdə məktəbəqədər təhsil müəssisələrinin borcudur. Hansıki müasir dövrümüzdə bu məsələ həmişəkindən daha çox aktuallıq kəsb edir və onun hərtərəfli tətbiqinə ehtiyac hiss olunur. (1, s.15). Görkəmli mütəfəkkirlərimizdən biri olan M.F. Axundov uşaqlara nəcib əxlaqi keyfiyyətlər aşılamağa, vətənpərvərlik tərbiyəsinə böyük əhəmiyyət verirdi. O, cəmiyyətin üzvlərinin xalqa, qadın hüququna hörmət bəsləyən, nəzakətli, mədəni, həqiqəti sevən, özünə və başqalarına tələbkar adamlar olmalarını arzu edir və həyatda da belə görmək istəyirdi. (2, s. 113). Uşaqlara yalnız bir neçə dəyərləri öyrətməklədə kifayətlənmək olmaz. Vətənpərvərlik hissini ilkin davranışlara, vərdişlərə həkk etmək lazımdır, yəni istər təbiətə münasibətdə, insanlara münasibətdə, ümumilikdə insan həyatının hər bir sahəsində vətənpərvərlik hissi olmalıdır (3). “Mən öz xalqımı sevirəm, öz xalqımın vətənpərvəriyəm” deyən Ulu Öndər Heydər Əliyev uşaq və gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında milli mənəvi dəyərlərimizin qorunmasını, gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini əsas hədəf hesab edirdi (4).

Gənclərimizin vətənpərvərlik ruhunda böyüməsi işinin mühüm istiqamətlərindən birini heç şübhəsizki, qeyd olunduğu kimi təhsil müəssisələrindəki təlim-tərbiyə işləri təşkil edir. Azərbaycan Respublikasının Təhsil Qanununun (2009) 4-cü maddəsində təhsilin əsas məqsədi aşağıdakı şəkildə şərh edilmişdir: Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək. (5, s. 15).

Gənc nəslin vətənpərvər ruhda böyüməsində Tarix fənninin böyük əhəmiyyəti vardır. Azərbaycan tarixşünaslığının banisi görkəmli mütəfəkkir A.A.Bakıxanov 1841-ci ildə yazdığı Gülüstani-İrəm əsərinin müqəddiməsində tarix elmini əvəzi olmayan tərbiyə və əxlaq məktəbi olduğunu qeyd edərək yazırdı: "Bu elm insanı gözəl əxlaqlı və bilikli edir, ona dolanacaq və yaşayış işlərini öyrədir. Buna görə, onu mənəvi elmlərin qiymətlərindən hesab edib demək olar: tarix hökmsüz və zülmsüz elə bir hökmdardır ki, bütün adəm övladı onun əmrlərinə boyun əyməkdədir... Tarix elə bir danışmayan natiqdir ki, sələflərin vəsiyyətlərini bütün təfsilat və təriflərilə xələflərə bildirir, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yolların anladır".A.Bakıxanov göstərirdi ki, "vətən tarixi"ni bilmək insanlarda milli təfəkkürün inkişafına, vətənpərvərlik hislərinin tərbiyə edilməsinə, dostu düşməndən ayırmağa, millət üçün, vətən üçün faydalı və zərərli olanları fərqləndirməyə imkan verir" (6, s. 3). Ümumtəhsil məktəblərində Azərbaycan tarixinin tədrisi dərin və əhatəli biliyə, bacarıq və vərdişlərə, yüksək intellektə, geniş dünyagörüşünə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmağa, öz soykökünə, adət-ənənələrə, milli-mənəvi dəyərlərə əsaslanan, şərəfli tarixi keçmişinə dərindən yiyələnən, ailəsini, vətənini, millətini sevən və onu daim ucaltmağa çalışan vətəndaş tərbiyə etməyə xidmət edir. Azərbaycan tarixi fənninin əsas məqsədi məktəblilərdə vətənpərvərlik, fəal vətəndaşlıq mövqeyi, digər xalqlara, ümumbəşəri humanist dəyərlərə hörmət, ənənəvi və mədəni nailiyyətlərə əsaslanan əqidə prinsipləri, dövlətçilik ənənələrinə sədaqət hissi formalaşdırmaq üçün onlara keçmiş və müasir dövrün hadisələrini sərbəst təhlil etmək, faktları ümumiləşdirmək, əldə olunan biliklərdən cəmiyyətin müasir vəziyyətinin qiymətləndirməsində istifadə, tarixi mənbə, müxtəlif fikir və konsepsiyaları təhlil etmək, başqalarının fikirlərinə hörmət etmək, eləcə də sərbəst nəticə çıxarmaq və kollektivdə işləmək bacarıq və vərdişləri aşılamaqla informativ-kommunikativ və hüquqi mədəniyyət formalaşdırmaqdan ibarətdir (7, s. 8).

Təlim-tərbiyə prosesində milli duyğular, milli amil həmişə ön planda olmalıdır. Beləki, hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etmək olmalıdır. Dərsliklərdəki mövzuların şagirdlərin vətənpərvər ruhda böyüməsinə təsiri danılmazdır. Amma bu tərbiyənin formalaşmasında müəllimlərdən də çox şey asılıdır ki, onlar həmin mövzuları tədris etməklə gənclərdə vətənpərvərlik hisslərinin yaranmasına şərait yarada bilsinlər. Azərbaycan tarixi dərslərində tarix müəlliminin qarşısında duran vəzifələrdən ən birincisi gənc nəsilə vətənin nə olduğunu, onun haradan başladığını aşılamaqdır. İnsan öz ölkəsi, Vətəni haqqında nə qədər çox məlumatlı olursa, torpağını da sevərək onu qorumağı özünə borc hesab edir. Gənclərə izah olunmalıdır ki, vətən dedikdə, biz yalnız müəyyən sərhədləri olan bir torpaq sahəsi başa düşmürük. Vətən bizim üçün ilk növbədə anadır. Çünki o, bizi bir ana kimi öz qoynunda bəsləyir, boya-başa çatdırır. Biz bu torpağın havasını udur, suyunu içir, çörəyini yeyirik. Azərbaycan bizim hamımızın ümumi vətənidir. Hər birimizin yaşadığı şəhər, kənd, ev bu torpağın üzərində yerləşmişdir. Vətən ulu babalarımızın uyuduğu torpaq, gələcək nəsillərin yaşayış yeridir. Ata-babalarımız tarix boyu bu torpaqlarda sakin olmuş, onu əkib-becərmiş, qorumuş, onun uğrunda vuruşmuşlar. Vətənin daşlı-qumlu, heç bir məhsul verməyən şoran, altı da, üstü də zəngin təbii sərvətlərlə dolu olan torpaqları da bizim üçün qiymətlidir. Onu göz bəbəyimiz kimi qorumalıyıq. Bu məsələylə əlaqədar olaraq Azərbaycan Respublikası təhsil nazirinin müvafiq əmrinə əsasən, 2013-2014-cü tədris ilindən

başlayaraq ümumi təhsil müəssisələrinin V-XI siniflərində ilk dərsin "Mənim Vətənim – doğma yurdum" mövzusuna həsr olunması qərara alınıbki, buda təqdirə layiqdir. Tarix dərslərində gənclərimizə mövzuları izah edərkən hər dəfə qeyd olunulmalıdırki, vətənpərvərlik vətən sevgisi, vətənə olan məhəbbətdir. Vətənə məhəbbət hissi olmayan adamda əxlaqi kamillikdən danışmaq olmaz. Bunun nə qədər yüksək hiss olduğunu görkəmli şairimiz S.Vurğun belə ifadə etmişdir. "Xalq eşqi, vətən məhəbbəti insanın həyat nəfəsidir". Vətən torpağı, xalqın mənəvi həyatı tükənməz bir xəzinədir.

Ayrı-ayrı şəxsiyyətlərin fəaliyyəti bu və ya digər dərəcədə tarixin gedişinə təsir göstərir. Tarix şəxsiyyətlərin fəaliyyətindən xeyli dərəcədə asılı olur. Onların fəaliyyətlərinin əsasının başa düşülməsi və nəticələrinin düzgün qiymətləndirilməsi, eyni zamanda bir sıra tarixi hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirməyə və gələcəkdə baş verə biləcək digər hadisə və təzahürləri proqnozlaşdırmağa imkan yaradır. Buna görə də şagirdlərin keçmişdə və həmçinin müasir zamanda insan cəmiyyətinin inkişafında ayrı-ayrı şəxsiyyətlərin rolunu düzgün başa düşməsi və dəyərləndirməsi üçün onlara Azərbaycan tarixi ilə bağlı şəxsiyyətlərin fəaliyyəti barədə araşdırmalar aparmaq, müqayisələr və təhlillər əsasında fikir söyləmək imkanı verən bacarıqların aşılanması zəruri hesab edilir. Məhz bu zərurətdə belə bir əsas yaradır: Tarix dərslərində, xüsusəndə Azərbaycan tarixi dərsində tarix müəllimi tariximizin müdrik və uzaqgörən sərkərdələrinin, hökmdarlarının, dövlət başçılarının mənəvi irsinə nəzər salmalı, onları lazımi səviyyədə öyrənməli, nəzəri-tarixi baxımdan tədqiq edərək təhlilini verməli, gənc nəslə aşılanmasının imkanlarını araşdırmalıdır. Azərbaycan tarixi dərslərində mövzuları izah edərkən dərslik və proqramla kifayətlənmək olmaz. Həyat davam etdikcə yeni hadisələr, onları doğuran səbəblər də bunu tələb edir. Ona görə də şagirdlərə onlar haqqında da məlumat vermək önəm daşıyır. XI sinfə çatan hər bir şagird Azərbaycan ərazisində mövcud olan dövlətlərdən, baş verənlərdən xəbərdar olmazsa, müasir dövrdə baş verən hadisələrə düzgün qiymət verə bilməz. Şagirdlər Azərbaycan ərazisinə edilən işğalçı yürüşlər, bu ərazilərə hansı imperiyaların marağı olduğunu bildikdən sonra müasir dövrdə baş verən prosesləri analiz etmək qabiliyyətinə malik olur və sərbəst düşünə bilirlər.

Tarix dərslərində Azərbaycan torpaqlarının düşməndən müdafiə olunmasında qəhrəmanlıqlar, şücaətlər göstərən milli qəhrəmanlarımızın, şəhidlərimizin ibrətamiz həyat yollarından gətirilən nümunələr, misallar böyük təsir gücünə malikdir. Onların döyüş yolu, qəhrəmanlıq nümunələri haqqında gənclərə geniş məlumatlar verilməlidir. Gənclər işğal olunmuş torpaqlarımızı, sərhədlərimizi bilməli, şəhidlərimiz haqqında məlumatlı olmalı, milli qəhrəmanlarımızı tanımalıdırlar. Beləki, ancaq vətənə bağlı olan, vətənini sevən insan vətən uğrunda həmişə fədakarlıq edər, hətta öz canından da keçə bilər. Böyük türk şairi Mithat Cemal Kuntay "Torpaq - əgər uğrunda ölən varsa vətəndir!" - demişdir. Torpağın uğrunda ölən yoxsa, o torpaq vətən ola bilməz. Azərbaycan şanlı tarixi və əfsanəvi qəhrəmanları ilə həmişə fəxr edir. Tariximiz həmişə sübut edib ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bu xalq öz vətənini daima qorumağa hazır olan mətin gənclər yetişdirib. Müstəqil dövlətdə yaşayan hər bir gənc, ilk növbədə, bu dövlətin müstəqilliyinin təmin edilməsini özünün əsas vəzifəsi və məqsədi hesab etməlidirlər. Buna görədə Azərbaycan tarixi dərslərində bu məsələyə xüsusi diqqətlə toxunulmalıdır. Gənclərimiz bir daha bilməli və dərk etməlidir ki, Azərbaycan üçün dövlət müstəqilliyi ən böyük hadisədir. Gənclərin mütəmadi olaraq müharibə veteranları və zabitlərlə görüşləri təşkil olunmalıdır. Çünki, veteran və zabitlərlə görüşlər onlara örnək olur. Gənclər qarşılarında müharibənin ağrı-acısını yaşayan, od-alovun içindən keçən qəhrəman insanları görəndə onlara bənzəmək istəyirlər. Bu cür görüşlər şagirdlərin Vətənə, doğma yurdlarına qarşı məhəbbətlərini artırır, onları vətənin müdafiəsinə hazırlayır. Əsas odur ki, onlar vətənpərvər ruhda tərbiyələnib daim özlərini vətənin əsgəri hesab edirlər. Həmçinin gənclərimiz hərbi hissələrə, muzeylərə, Bayraq meydanlarına aparılmalı, onlara tariximiz, müstəqilliyimiz haqqında məlumatlar verilməlidir.

Tarix müəllimləri şagirdə vətənpərvərlik sözünün yalnız çiynində silah, əynində hərbi forma cəbhədə vuruşmaq olmadığını bildirməlidir. İxtisasından asılı olmayaraq müəllim hər bir şagird üçün nümunədir. Əgər müəllim, öz fənnini tədris edib uşaqlarda milli ruhu aşılayırsa, deməк öz funksiyanı müəyyən qədər yerinə yetirir. Əgər bir idmançımız bayrağımızı hər hansı idman arenasında göylərə qaldırırsa, bu da vətənpərvərlikdir. Ona görə də buna kompleks yanaşılmalıdır. Hər bir müəllim 45 dəqiqəlik dərsin 10 dəqiqəsini buna ayırsa, yaxşı nəticə alınar. Vətənpərvərliyi, mənəvi əqidəni düşmənə nifrətsiz təsəvvür etmək qeyri mümkündür. Tarix müəllimləri istər dərsdə, istərsə də sinifdənkənar tədbirlərdə yeri gəldikcə şagirdlərə şüurlu surətdə dərk etdirməlidirlər ki, ermənilərin xalqımıza qarşı törətdikləri bütün cinayətlər insana xas olmayan vəhşilikdir. Ermənilərin xalqımızın başına gətirdiyi bütün müsibətləri gənclərə ayrı-ayrılıqda izah etməli, həmçinin müasir dövrümüzün ən ağır cinayətlərindən olan Xocalı, 20 yanvar faciəsini, Şəhidlər xiyabanı qeyd etməklə gənclərdə düşmənə nifrət hissini formalaşdırmalıdırlar.Yaxşı olar ki, bütün bu vəhşiliklərə aid videokasetlər göstərilsin, filmlər nümayiş etdirilsin.

44 günlük Vətən müharibəsində gənclərimizin göstərdiyi şücaət bir vətənpərvərlik məktəbidir. Bu məktəbi öyrənmək, şahidlərimizin xatirəsinə hörmətlə, qazilərimizə diqqət və qayğı ilə yanaşmaq hər birimizin vətəndaşlıq borcudur. Azərbaycan tarixi dərslərində Vətən müharibəsinin nəticələri nəzərə alınmaqla, Azərbaycanın qələbəsini təmin edən amillər təhlil olunmalı, "Qarabağ dərsləri", "Qarabağ şahinləri", "Milli qəhrəmanlar", "Qarabağ müharibəsi qəhrəmanları", "Şuşa əməliyyatı" adlı dərslər təşkil olunmalı, Qarabağ müharibəsi qəhrəmanları, qaziləri, şəhidləri, iştirakçıları haqqında ensiklopedik soraq kitabları hazırlanmalı, sənədli filmlər çəkilməli, həmin insanlar yetişməkdə olan uşaq və gənclərə yetərincə tanıdılmalıdır. Vətəni qorumaq nə qədər müqəddəsdirsə, ölkənin tərəqqisi üçün faydalı olmaq da o qədər önəmlidir. Yunan filosofu Sokrata görə, vətənpərvərlik döyüşdə vuruşub böyük qəhrəmanlıq göstərməklə bitmir. Hər bir insanın üzərinə düşən vəzifəni ədalətlə, vicdanla yerinə yetirmək də vətənpərvərlikdir. Qeyd olunduğu kimi “Vətənpərvərlik yalnız ön cəbhədə vuruşmaq deyil, həm də ölkənin inkişafı üçün müasir dövrün tələblərinə uyğun bilik və bacarıqlara yiyələnməkdir. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda ölkəmiz üçün müasir düşüncəli və rəqabət qabiliyyətli insan kapitalının formalaşdırılmasında ümumi təhsilin xüsusi əhəmiyyətə malik olduğu vurğulanıb. Ona görə də ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin dövrün çağırışlarına uyğun keyfiyyətli təhsillə əhatə olunması, onların cəmiyyətdə şəxsiyyət, vətənpərvər ruhlu yetkin vətəndaş kimi tərbiyəsi daim diqqət mərkəzində olan vəzifədir.

**Nəticə:** Beləliklə, mövzu üzərində işlədikdən sonra o nəticəyə gəlirik ki, vətənpərvər, azərbaycançılıq hisslərinə malik olan gənclər yetişdirmək vəzifəsi həm Azərbaycan tarixi dərslərində tarix müəllimləri tərəfindən həyata keçirilməli, həmdə cəmiyyətin bütün sahələrində bu məsələ təbliğ edilməli, ən başlıca hədəfə çevrilməlidir. Çünki, məhz xalqını, millətini dərin məhəbbətlə sevən və onu hər an qorumağa hazır olan vətənpərvər vətəndaşlarımızın mövcudluğu, müstəqil quruculuq yolu seçən ölkəmizin daha da inkişaf etməsinə və hər zaman təhlükəsizliyinin qorunmasına zəmanət verir.

## Ədəbiyyat


1. Məmmədəli Hənnan oğlu Ağayev “Pedaqoji fikir tarixində tərbiyə və təhsil”. Bakı -2011.178 s.
2. Şahbaz Şamıoğlu (Musayev).”Mirzə Fətəli Axundzadənin gürcü müasirləri” Monoqrafiya. Bakı-2012, 116 s.
3. “Vətənpərvərliyi təkcə gənclərə şamil etmək olmaz, kompleks yanaşma olmalıdır.Yeni qanun layihəsi ilə bağlı açıqlama ”https:// www. Xalqcebhesi. az/ news/politics/73946.html
4. “Ümummilli lider Heydər Əliyev və dövlət uşaq siyasəti mövzusunda” tədbir keçirmişdir. http://aqupdk.nakhchivan.az/mtbuat-xidmti/xbrlr/448-2019-05-06-13-40-55.html
5. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı-2009.

6. Bakıxanov A. Gülüstani-İrəm. Bakı -1951. 252 s.
7. ”Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün Azərbaycan tarixi fənni üzrə təhsil proqramı. (Kurrikulumu)(V-XI siniflər)”Bakı-2013.144s
8. Qasımova A.Q. Tarixi şəxsiyyətlərə dair materialların öyrənilməsi yeniyetmələrin tərbiyəsinin vasitəsi kimi. Bakı-2003.157s.
9. Əmirov Mübariz. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası. (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti)Bakı- 2011.706 s.

**Э.О.Джаббарова**

**Воспитание чувства патриотизма у подрастающего поколения на уроках истории Азербайджана**

***Резюме***

В статье подробно анализируются понятия Родина и патриотизм, широко обсуждается важность и необходимость процесса изучения темы патриотизма у нашей молодежи на уроках истории Азербайджана. Отмечается, что осуществление этого процесса учителями истории на уроках истории Азербайджана, служит воспитанию подрастающего поколения, нашей молодежи на основе национально-духовных ценностей, в патриотическом духе. В основе существования и развития каждого сильного народа, нации и государства, его развития и высоких достижений и в готовности в любое время защитить его безопасность - лежит наличие патриотически настроенной молодежи и граждан.

**E.O.Jabbarova**

**Teaching patriotism to the younger generation at the lessons of history of Azerbaijan**

***Summary***

In the article, the concepts of homeland and patriotism are analyzed in detail, the importance and necessity of the process of teaching patriotism to our youth in the history lessons of Azerbaijan is widely discussed. It is noted that the implementation of this process by history teachers in Azerbaijani history classes serves to educate the younger generation, our youth on the basis of national and spiritual values, in a patriotic spirit. The existence of patriotic youth and citizens is at the root of the existence and development of every strong people, nation and state, its constant high achievements and readiness to protect its security at any time.

*Rəyçi: t.f.d. V.Baxışov*

*Redaksiyaya daxil olub: 10.06.2022*